**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**FİLOLOGİYA FAKÜLTƏSİ**

**Təsdiq edirəm:**
**Filologiya fakültəsinin dekanı**
**dos.M.T.Vəliyev**

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının elmi-tədqiqat plan işlərinin yerinə yetirilməsi haqqında**

# MƏLUMAT

**BAKI – 2015**

# 1. GİRİŞ

**2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ ( professor- müəllim heyətinin yaş göstəriciləri əlavə etməklə)**

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının 2015–ci il elmi – tədqiqat planının yerinə yetirilməsi haqqında**

**məlumat**

2015- ci ildə kafedrada ştat üzrə 12 müəllim işləyir. Onlardan 10-u tam ştatda, 2-si 0,5 (yarım) ştatdadır. Ştatda olan müəllimlərdən 11 -nin elmi dərəcəsi var. İki nəfər elmlər doktoru, 1professor, 9 nəfər filologiya üzrə fəlsəfə doktoru və dosent, bir nəfər fəlsəfə üzrə elmlər doktoru. Ştatda olan müəllimlərdən birinin elmi dərəcəsi və elmi adı yoxdur.Kafedranın 2015-ci ilə aid elmi iş planı filologiya üzrə metodika məsələlərinə həsr edilmişdir. Bununla bərabər, dilə və ədəbiyyata aid nəzəri mövzulara da yer verilmişdir.

2015- ci ildə kafedranın müəllimləri və elmi işləri haqqında.

1. H.A.Əsgərov – 1959,Fil.e.d., professor, 0,5 ştat
2. R.İ.Quliyeva – 1947, f.ü.f.d, dosent, tam ştat
3. R.D. Mahmudova – 1950, f.ü.f.d., dosent, tam ştat
4 M.Ə.Qurbanova - 1953, f.ü.f.d., dosent, tam ştat
5. Ə.H. Cavadov - 1956, f.ü.f.d., dosent, tam ştat
6. İ.İ. Şəmsizadə – 1959, f.ü.f.d, dosent, tam ştat
7. M.Ə.Abdullayeva – 1961, fəl.e.d., dosent, tam ştat
8. S.Ş.Mustafayeva – 1971, f.ü.f.d., dosent tam ştat
9. Ş.C.Abdullayeva – 1972, f.ü.f.d., dosent, tam ştat
10.Ş.X.Əliyeva – 1962, p.ü.f.d.,dosent,0,5 ştat
11. E.H.Məmmədov – 1973, f.ü.f.d., müəllim , 0,5 ştat
12. S.H.Rzayeva - 1950, müəllim, tam ştat

**Planda nəzərə alınmış problemlər:**

1.Azərbaycan dili və ədəbiyyatının tədqiqinin nəzəri və praktik məsələləri
2.Azərbaycan dili və ədəbiyyatının tədrisi məsələləri.

**3.KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ**

**İş.A. Dövlətçilik və dilin funksionallığı.**

**Mərhələ**1. Dilin inkişafında tarixi mərhələlər.

1. **İcraçı: Prof. H.A.Əsgərov.**

Elmi – plan işi 2 bölmədən ibarətdir. «Dövlətçilik və dilin funksionalığı». 1 –ci bölmədə dövlətçilik zəminində dilin cəmiyyətdə rolunun atması, informasiya imkanlarının genişlənməsi açıqlanır və göstərilir ki, dil insan cəmiyyətində elə mühüm informasiya vasitəsidir ki, o təkcə bu gün üçün gərəkli deyil, o həm də keçmişi bu günə və gələcəyə çatdırır. Məhz elə bu cür funksiyalarına görə dil bütün nəsillər, hətta dövlət tərəfindən qorunmalıdır. Həmçinin dilin çox işlək, anlaşıqlı olması üçün onun müvafiq normalarının təkmilləşdirilməsi, sabitləşməsi zəruri problemlərdən biridir.

2-ci bölmədə isə dilin inkişafında tarixi mərhələlər və norma məsələsi aydınlaşdırılmışdır. Burada müasir dillərin bəzilərində şəkilçilərin çox inkişaf etməsi, söz yaradıcılığı imkanlarının daha geniş olduğu göstərilir, eyni zamanda dillərin bəzilərində şəkilçi sistemi az olduğu da nəzərə çatdırılır. İşdə belə dillər müqayisə edilir və hərəsinin özünəməxsus xarakterik xüsusiyyətləri izah edilir.

2015-ci ildə H.Əsgərovun 2 proqram çap olunmuşdur.

1.Ümumi Təhsil Kurikulumunun əsasları proqrammı. (Ali təhsilin bakalavriat səviyyəsi üçün). «Bakı Universiteti» nəşriyyatı,Bakı 2015

2. «Azərbaycan dilinin tədrisi metodikası» adlı proqram hazırlanmışdır və nazirliyə təqdim olunmuşdur. Fakültə Elmi şurasında və Tədris- Metodiki Şurada müzakirə olunaraq çapa məsləhət görülmüşdür.

3.Aparıcı müəssisə kimi 2 namizədlik, 1 doktorluq üçün rəy vermişidr.

4.Bir nəfər müdafiə olunmuş dissertasiya işinə rəhbərlik etmişdir.

**İş. «Azərbaycan dili dərslərində ənənəvilik və ona müasir yanaşma»**

**Mərhələ**1. Elmi- metodik ədəbiyyatda problemin qoyuluşu

2. **İcraçı: dos. R.İ.Quliyeva**

Elmi plan işi giriş, 3 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Girişdə elmi plan işinin məqsədi, mahiyyəti, Azərbaycan dili dərslərinin düzgün təşkili qanunauyğunluqlarınan danışılır.

1- ci paraqafda problemin elmi- metodik ədəbiyyatda qoyuluşu açıqlanır. Ənənəvi təlim metodları haqqında elmi –nəzəri və təcrübi mülahizələrin ayrı-ayrı pedaqoji ədəbiyyatlarda, fundamental tədqiqatlarda öz əksini tapdığı görsədilir və rus pedaqoqlarının, metodistlərinin elmi irsi tədqiqata cəlb edilmişdir.

2- ci paraqrafdakı araşdırma Azərbaycan dili fənninə aid ilk proqramlar, eləcə də son dövrlər orta məktəblər üçün nəzərdə tutulan proqramların təhlili əsasında aparılmışdır.

3- cü paraqrafda isə müxtəlif ənənəvi təlim metodlarının Azərbaycan dili dərslərində tətbiqi xüsusiyyətləri, onların müasir metodlarla əlaqələndirilməsi məsələlərində bəhs edilmişdir.

Nəticədə isə göstərilir ki, ənənəvi təlim metodlarının pedaqoji üstünlükləri, səmərəliliyi öz təcrübəsi ilə sınanmış və uzun bir vaxtdır ki, təlimdə aparıcı mövqeyi ilə seçilmişdir. Lakin yeni dövrün qabaqçıl təcrübəyə inteqrasiyası təlim metodlarının təkmilləşdirilməsi, yeniləşməsi zərurətini aktuallaşdırmışdır.

2015- ci ildə R. Quliyevanın 4 məqaləsi və 2 proqramı çap olunmuşdur.

1. «Söz ehtiyatını zənginləşdirmək üçün işin məzmunu». Filologiya məsələləri . №2. 2015.

2. «Kommunikativ vəzifənin həyata keçirilməsi». Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Filologiyanın Aktual Problemləri mövzusunda Respublika elmi-nəzəri konfransın materialı.Bakı, 2015.

3. «Azərbaycan dilçiliyində Yusif Seyidov mərhələsi». «B. Vahabzadə və Azərbaycan Filolociyasının Aktual Problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. 29 oktyabr 2015- ci il., B.2015.

4.«Azerbaycan Türkçesinde konuşmanın geliştirilmesi yöntemleri».Uluslararası Kars simpoziumu. 21-23ekim,Kars, 2015

5. Proqram: «Azərbaycan dilinin tədrisi metodikasının nəzəri problemləri». Bakı nəşriyyatı, 2015

6. Proqram:«Qrammatik təhlilin nəzəri- metodik əsasları».Bakı nəşriyyatı, 2015

**İş. Tələbələrin şifahi nitqinin inkişaf etdirilməsi yolları.**

**Mərhələ**1. Tələbələrin lüğət ehtiyatının zənginləşdirməklə onlarda şifahi nitq vərdişləri yaratmaq.

**3. İcraçı: dos. R.D.Mahmudova**

«Xarici tələbələrin şifahi nitqinin inkişaf etdirilməsi yolları» adlı elmi-plan işi bu günümüzün ən aktual və ən vacib məsələlərindən birinə həsr olunmuşdur. Nitq inkişafı təlimində əsas vəzifələrdən biri tələbələrdə biri nitq mədəniyyətinin formalaşdırılması, onlarda ifadəli oxu, aydın, səlis, düzgün, şifahi və yazılı nitq bacarıqlarının inkişaf etdirilməsidir.

Elmi-plan işində intonasiya, nitq fasilələri, məntiqi və həyəcanlı vurğu, ritmik bölgülər, ədəbi tələffüz normaları, nitqin ahəngdarlığı, orfoepik, orfoqrafik normalar, nitqin surəti, tonu haqqında məlumatlar verilir və göstərilir ki, bunların gözlənilməsi və öyrədilməsi nitqi inkişaf etdirən əsas vasitələrdir.Burada nitq inkişafı üzrə aparılacaq işlərin məzmunundan və şifahi nitqə verilən başlıca üslubi tələblərdən danışılır.

2015-ci ildə 1.«Sevimli müəllim,xeyirxah insan» Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015

2. «XVIII – XIX əsrlərdə yaranan lüğətlər». «Kitabi – Dədə Qorqud və Türk dünyası» mövzusunda keçirilən Beynəlxalq Elmi Konfransının materialı.Bakı. 2015. (çapdadır)

**İş. Azərbaycan dilinin zənginləşdirilməsinin lüğətlərdə əksi.**

**Mərhələ**1. Avropa dilləri hesabına Azərbaycan dilinin zənginləşdirilməsi, lüğətlərdə əksi.

**4.İcraçı: M.Ə.Qurbanova**

«Avropa dilləri hesabına Azərbaycan dilinin zənginləşdirilməsi, bunun lüğətlərdə əksi» mövzusu adlı elmi – plan işində başlıca olaraq müxtəlif tipli lüğətlərdən – izahlı və orfoqrafiya lüğətlərindən rus dili və rus dili vasitəsilə Avropa dillərindən alınmış sözlər seçilmişdir. Həmin sözlərin mənşəyi – hansı dildən alınması və hansı sahədə istifadə edilməsi göstərilmişdir. Eyni zamanda elmi işdə həmin alınma sözlərin söz yaradıcılığı prosesində iştirakı, düzəltmə və mürəkkəb sözlərin yaradılmasında rolu izah edilmişdir. Elmi plan işində təhlil olunan, təxminən, 500 söz əlifba sırası ilə verilmişdir.

Sözyaratmada daha çox rolu olan leksik şəkilçilər və mürəkkəb sözün tərkib hissəsi kimi daha çox işlənən sözlər də xüsusi olaraq göstərilmişdir.

2015 - ci ildə Məhbubə Qurbanovanın 4 məqaləsi çap olunub.

1 «Bəxtiyar Vahabzadə yaradıcılığı: idrak fəlsəfəsinin dili».( B.Vahabzalənin anadan olunmasının 90 illik yubileyinə həsr olunmuş «B. Vahabzadə və Azərbaycan Filolociyasının Aktual Problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. 29 oktyabr 2015- ci il., B.2015. səh.75-77.

2. «Azərbaycan dilində söz yaradıcılığı prosesində Avropa mənşəli alınmaların rolu». Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015. Səh. 274-278.

3. «Bizim Pənah müəllim» Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015. Səh. 16-18.

4. «Kitabi – Dədə Qorqud» leksikası və ümumtürk leksikoqrafiyası» «Kitabi – Dədə Qorqud və Türk dünyası» mövzusunda keçirilən Beynəlxalq Elmi Konfransının materialı. Bakı 2015. (çapdadır)

**İş. Milli kurikulum və müasir dərs.**

**Mərhələ**1. İslahat Proqramına uyğun olaraq müasir dövrdə Azərbaycan dili və ədəbiyyatının tədrisi problemləri..

**5.İcraçı: dos. Ə.H.Cavadov**

Elmi-plan işində İslahat Proqramına uyğun olaraq, Azərbaycan dili və ədəbiyyatının tədrisi problemlərindən danışılır. Milli fənn kurikulumunun ( dövlət standartlarının) tələbinə əsasən ana dili və ədəbiyyatı üzrə əsas məzmun standartları-- dinləyib-anlama və danışma, oxu və yazı qaydaları, eləcə də dil qaydaları üzrə işə ciddi diqqət yetirilməsi günün tələbi kimi meydana çıxır.

Şagirdyönümlü, tələbyönümlü, nəticəyönümlü təhsilə qədəm qoyduğumuz indiki dövrdə tədrisdə biliyin hazır kapital şəklində yığılması yox, onun bacarıq və vərdişlərə çevrilməsi, əldə olunan məlumatların yaradıcı tətbiqetmə yolu yoxlanılması  əsas keyfiyyət göstəricisi kimi çıxış edir. Ənənəvi təlim metodlarından fərqli olaraq, müasir təlim üsul və vasitələri təhsilalanları dərs prosesinin obyektindən subyektinə çevirir, tələbənin (şagirdin) tədqiqatçı, müəllimin fasilitator (bələdçi) rolunu ön plana çəkir.

Tədqiqat nəticəsində müəyyənləşdirilir ki, Azərbaycan dili və ədəbiyyatının tədrisi inteqrativ yolla qurlulmalı, müasir İKT-dən istifadə yolu ilə həyata keçirilməlidir. Hər bir fənn üzrə verilən biliklər kurikulumların (dövlət standartlarının) tələbinə uyğunlaşdırılmalı, təlimin tamlığı prinsipi qorunmalıdır.

2015-ci ildə Ə.H.Cavadovun 2(iki) elmi məqaləsi çap olunmuşdur:

**1.** Qul Əlinin "Qisseyi-Yusif" əsərində təközəkli tabeli mürəkkəb cümlələrin struktur təhlili—"**Azərbaycanşünaslığın aktual problemləri**"-Ümumilli  lider Heydər Əliyevin anadan olmasının  92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları (I hissə). 5-7 may 2015-ci il. Bakı, "Mütərcim", 2015.

**2.** Mübtəda budaq cümləli tabeli mürəkkəb  cümlə komponentlərinin semantik – qrammatik xüsusiyyətləri  (M. Füzulinin əsərləri üzrə) – "**Türk xalqları ədəbiyyatının aktual problemləri"**- Professor Pənah  Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015.

**İş.** Ümumi təhsil səviyyələri üzrə əldə edilən təlim nəticələri.

**Mərhələ**1. İbtidai təhsil üzrə ümumi təlim nəticələri **.**

**6.İcraçı: dos. İ.İ.Şəmsizadə, Dos.Ş.C.Abdullayeva**

Təlim nəticələri – müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir. Yeni kurikulumun hazırlanmasında nəzərə alınmış əsas prinsiplərdən biridir. Bu prinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

İbtidai təhsili başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:

–yaşına uyğun bədii, elmi-kütləvi və məlumat xarakterli mətnləri müəyyən edilmiş qaydada oxumağı;

–oxuduğu mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi;

–lüğətlərdən, məlumat xarakterli vəsaitlərdən, kompyuter texnikasından istifadə etməyi;

–öz fikirlərini şifahi və yazılı formada aydın ifadə etməyi; məntiqi düşünməyi, fikir irəli sürməyi, başqasının fikrinə münasibət bildirməyi;

–zəruri riyazi bilikləri həyatda tətbiq etməyi, sadə alqoritmləri yerinə yetirməyi;

–müşahidə etdiyi obyekt və hadisələri təsvir etməyi, onları səciyyəvi əlamətlərinə görə fərqləndirməyi;

–ünsiyyət qurmağı, əməkdaşlıq etməyi, komanda, kollektiv tərkibində fəaliyyət göstərməyi;

–sadə mədəni davranış, şəxsi gigiyena və zəruri təhlükəsizlik qaydalarına əməl etməyi;

–müəyyən olunmuş normativlər çərçivəsində fiziki hərəkətləri, bədii-estetik qabiliyyətini nümayiş etdirməyi, sadə əmək vərdişlərini tətbiq etməyi;

–öz hüquqlarını müdafiə etməyi, başqasının hüquqlarına hörmət etməyi; insanlara, təbiətə, şəxsi və dövlət əmlakına, başqasının əməyinə həssas, qayğıkeş və ədalətli münasibət göstərməyi;

–Azərbaycan xalqının əxlaqi-mənəvi dəyərləri, tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri haqqında qazandığı ilkin bilikləri, habelə ölkəsinə qarşı əks mövqedə olan qüvvələri sadə formada təqdim etməyi;

- xarici dildə sadə ünsiyyət bacarıqlarına yiyələndiyini nümayiş etdirməyi.

**Dos. İ.Şəmsizadənin 2015-ci ildə çap olunmuş elmi əsərləri**

1. Dos. İ.Şəmsizadə. "XX əsr ədəbiyyatının tədrisi tədqiqatlarda". Azərbaycan dili və ədəbiyyatının tədrisi (Elmi-metodik jurnal), Bakı, № 1, səh. 66-75, 2015.
2. Dos. İ.Şəmsizadə. "Azərbaycan və Türk dillərində fərqlilik məsələsi". Filologiya məsələləri , Bakı, № 8, 2015.

**Dos. Ş.Abdullayevanın 2015-ci ildə çap olunmuş elmi əsərləri**

**1.** Toni Morrisonun "Sevgilim" əsəri haqqında bir neçə söz ("Dil və ədəbiyyat" beynəlxalq-elmi-nəzəri jurnal, № 3, 25, Bakı, 2015,səh.239-241). 2015-ci ildə Ş.Abdullayeva dosent adı almışdır.

**İş. Müasir linqvistikada metafora nəzəriyyəsi.**

**Mərhələ**1. Pol Rikörün idrak, təxəyyül və duyma hadisəsi kimi dəyərləndirdiyi metafora.

7. **İcraçı: dos. M.Ə.Abdullayeva.**

Elmi işdə metaforanın müasir dövr nəzəriyyəçisi, fransız filosofu*Pol Rikörün*(*1913-2005*)metafora nəzəriyyəsi problemindəki semantik və psixoloji cəhətləri – "obraz", "hissiyyat" məsələlərinə baxışı tədqiq edilir. Elmi işdə göstərilir ki, Pol Riköra görə, metafora tapmaca deyil, tapmacaya cavabdır, dünyanın sirləri insanlar üçün tapmacadırsa, metafora dünyanı dərk aktını həyata keçirən vasitədir və o, ezoterik mahiyyətli mətnlərin şərhində, anlaşılmasında əvəzsiz rol oynayır. Metaforaya maraq həyatı, dünyanı təhqiqin müxtəlif sahələrinibirləşdirir, insanlara bu sahələrlə bağlı yeni biliklər verir. Koqnitiv metafora elmlər arasında əlaqə yaradır. İnformativ yük daşıyan belə metafortalarda insanların fəlsəfi düşüncə tərzi, dünyaanlamı əks olunur. Sırf filoloji yanaşmada metafora linqvistik analizvə poetik dəyərləndirmə müstəvisində durur.Elmi işdə yazılır ki, Pol Rikörun yanaşmasında, yəni fəlsəfi metodlarla (hermenevtik metodla) yanaşmada metafora *konseptual*sistem daşıyıcısı kimi əhəmiyyət kəsb edir; təsviri səciyyə daşıyan bədii metaforadan (məs, *qızıl* payız, günün *doğması* və s.) , adlandırma xüsusiyyəti daşıyan nominativ metaforadan (masanın *ayağı*, *çətirlilər* fəsiləsi- botanikada və s.) fərqli olaraq, konseptual metafora

ekzistensial mahiyyəti, dünyanı və insanı dərk aktında yeni konseptləri təqdim edir. Pol Rikörа istinadən elmi işdə deyilir ki, metafora ayrıca götürülmüş sözdə özünü göstərə bilməz, o, ifadələrdə birləşmiş sözlərin konfliktindən, gərginliyindən yaranır; metafora dilin rəmziliyini nümayiş etdirən ən aydın vasitədir və o, subyektin evristik fəaliyyətini dərinləşdirir. Pol Rikörə görə, ifadənin semantik düzgünlüyünün pozulması və hərfi məna ilə uyğunsuzluğu keyfiyyətinə görə metafora psixoloji və idraki akt olaraq insanın yaradıcılıq qabiliyyətini üzə çıxarır.

**Çap olunmuiş məqalələr:**

1. Yusif Seyidovun bədii-fəlsəfi düşüncələri.H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr Respublika Elmi-Nəzəri Konfransı.Bakı, 2015
2. Mifik təfəkkürün fəlsəfi aspekti."Azərbaycan folklor nümunələrin- də milli-mənəvi dəyərlərin təcəssümü" Respublika elmi konfransının materialları.Bakı,2015
3. Qocalıq fenomeni və Bəxtiyar Vahabzadə yaradıcılığında onun ifadəsi.B.Vahabzadənin anadan olmasının 90 iliyinə həsr olunmuş "B.Vahabzadə və Azərbaycan filologiyasının actual problemləri" Beynəlxalq elmi konfransının materialları.Bakı, 29 oktyabr, 2015

4.Təsəvvüf poeziyasının dərkində koqnitiv metaforanın rolu. Pənah Xəlilovun yaradıcılığına həsr olunmuş elmi-nəzəri konfrans. Bakı, 15 dekabr, 2015

**Çap olunmuş proqramlar:**

1.İfadəli oxudan praktikum. (Filologiya fakültəsinin IV kurs bakalavriat pilləsi üçün.)

2. I Ümumittifaq Türkoloji Qurultayı.(Filologiya fakültəsinin II kurs magistratura pilləsi üçün.).

**İş. Azərbaycan dilinin tədrisi tarixinin metodoloji problemləri.**

**Mərhələ**1. Azərbaycan dilinin tədrisi XIX əsr tarixi şəraitində.

**8.İcraçı: dos. S.Ş.Mustafayeva**

Elm işdə adına uyğun olaraq, Azərbaycan dili tədrisi tarixinin metodoloji problemlərindən danışılır. 2015-ci ildə XIX əsrin ağır tarixi şəraitində Azərbaycan

dilinin tədrisinin vəziyyəti və ziyalılarımızın həmin dövrdə ana dilimizin məktəblərdə tədrisi uğrunda apardıqları mübarizəsinin təqdimatı nəzərdə tutulur.

Müəllif nəzərdə tutur ki, XIX əsrdə ana dili altında dini dərslərin keçirilməsi Azərbaycan dilinin tədrisinə mane olurdu. Ziyalıları isə həmin problemi aradan qaldırmaq düşündürürdü. Əvvəlcə əsrin əvvəllərindəki məktəblərin və dərsliklərin vəziyyəti izah olunur. Dərsliklər, dərs vəsaitləri və onların metodiki xüsusiyyətləri qeyd edilir: onlar belə sıralanırlar: tərcümələr («Kəlimə və Dimnə», «Ərəb dili qrammatikası» və s.); dərsliklər (A.Bakıxanov «Təhzibi», M.F.Axundov «Əlifba», «Əxlaq» və s.).

Azərbaycanda qəza məktəbləri açıldıqdan sonra dərs aparan müəllimlərə kömək məqsədilə hazırlanan dərs vəsaitlərindəki metodik üsullar nəzərdən keçirilir. Azərbaycan dili tədrisinin XIX əsrin II yarısındakı vəziyyəti və təhsilə kömək məqsədilə çap olunmuş kitablar da ətraflı təhlil olunur. S.Mustafayeva müəyyənləşdirir ki, Azərbaycan dilinin tədrisində, XIX əsrin ikinci yarısında birinci yarısına nisbətən ciddi irəliləyiş olmuşdur. Azərbaycanın təhsil alıb vətəninə dönən ziyalıları tədrisdəki problemləri aradan qaldıracaq bütün metodoloji üsullardan istifadə edərək millətin təhsil səviyyəsinin yüksəldilməsi yolunda ciddi addımlar atmağa başlamışdılar.

2015-ci ildə S.Mustafayevanın iki məqaləsi, iki proqramı çap olunmuşdur:

1. «İ.Nəsiminin şeirlərinin dilində qədim Azərbaycan mənşəli siyasi və hərbi anlayışlar. (Dil və ədəbiyyat, Beynəlxalq-elmi-nəzəri jurnal, Bakı, 2015)

2. İ.Nəsiminin əsərlərinin dilində işlənən qədim Azərbaycan sözlər (isim və əvəzliklər). (Dil və ədəbiyyat, Beynəlxalq-elmi-nəzəri jurnal, Bakı, 2015)

3. Proqram: Azərbaycan dilinin tədrisi tarixi fənninin proqrammı. «Bakı Universiteti» nəşriyyatı,Bakı 2015

4.Proqram: Ümumtəhsil orta məktəbləri üçün Azərbaycan dili və ədəbiyyatdan proqram və dərsliklərin fənninin proqrammı.

«Bakı Universiteti» nəşriyyatı,Bakı 2015

**İş : Azərb. dilində nitqin formaları**

Mərhələ1. Ədəbi dil və onun formalaşma mərhələləri

**9. İcraçı: dos. Ş.X.Əliyeva**

Elmi plan işi Giriş  və üç paraqafdan ibarətdir. Girişdə Azərbaycan dilçiliyində ədəbi dilin formalaşma mərhələləri haqqında hələ də fikir müxtəlifliyinin mövcud olmasında, bu mövzunun tam həll edilməmiş məsələlərdən biri olduğundan danışılır və göstərilir ki, Azərbaycan ədəbi dili hələ qədimdən xalqımızın intellektial, mədəni səviyyəsi və hər bir dövrün ictimai-tarixi hadisələri ilə bağlı olaraq böyük bir inkişaf yolu keçmiş və zənginləşərək bugünkü inkişaf səviyyəsinə çatmışdır.

Azərbaycan ədəbi dilinin formalaşma mərhələləri adlı I- ci paraqrafda ədəbi dilin formalaşması tarixi  haqqında müxtəlif tədqiqatçıların – B.Çobanzadə, Ə.Dəmirçizadə, T.Hacıyev, N.Xudiyev, N.Cəfərof və s. müəlliflərin fikirlərinə nəzər yetirilmişdir. Burada ədəbi dil tarixinin mərhələlərinin öyrənilməsinin böyük elmi- nəzəri əhəmiyyətə malik olduğu vurğulanmış, ədəbi dil tarixinin dövrləşdirilməsinin xalqın tarixi, maddi və mənəvi mədəniyyəti, elmi və bədii düşüncəsinin inkişafı səviyyəsinin öyrənilməsi üçün vacib olduğundan bəhs edilmişdir.

II- ci paraqrafda  Azərbaycan ədəbi dilinin əski dövrü adlanır. Burada göstərilir ki. Ağqoyunlular, Səfəvilərö. Cəlalilər dövlətlərinin saray və ordu dili olan  Azərbaycan dili bütün Asiyada ədəbi dil kimi işlənmişdir. Ədəbi dilimizin əski dövrü müasir Azərbaycan dilindən bir sıra fonetik, leksik. morfoloji və sintaktik xüsusiyyətləri ilə fərqlənmişdir.

III-cü paqrafda isə ədəbi dilin yeni dövrünün 3 mərhələsi göstərilmiş və hər mərhələnin xarakterik xüsusiyyətləri izah edilmişdir: 1. Ədəbi dilin xəlqiləşməsi məprhələsi (XVIII əsr); 2. milli dilin yaranması və inkişafı mərhələsi (XIX əs rvə XX əsrin I rübü); 3. müasir mərhələ  (XXəsrin  I rübündən sonra). Burada ədəbi dilin üslublarına, normalarına, şifahi və yazılı formalarına da toxunulmuşdur.

2015- ci ildə 2 məqaləsi çap olunmuşdir.

1. «Mədəni nitqin kommunikativ şərtləri».Filologiya məsələləri.№7, Bakı 2015. Səh. 30-35

2. «Qrammatika təlimində istifadə edilən metod və priyomlar».

B.Vahabzadənin anadan olmasının 90 iliyinə həsr olunmuş "B.Vahabzadə və Azərbaycan filologiyasının actual problemləri" Beynəlxalq elmi konfransının materialları.Bakı, 29 oktyabr, 2015. Səh. 333- 336

**İş. Azərbaycan təsəvvüf ədəbiyyatı**

**Mərhələ**1. Təsəvvüf: mənşəyi, fəlsəfi əsasları.

**10.İcraçı: F.ü.f.d., müəllim E.H.Məmmədov**

Elmi işdə təsəvvüfün mənşəyi, onun təşəkkülündə "islami" ilə "qeyri-islami"nin rolu problemi tədqiq edilmiş, bu fəlsəfi təlimin qədim Çin, hind, yəhudi, yunan xalqlarının mistik təmayüllü fikir axınları ilə müəyyən bağlılığı olsa da, daha çox islam sivilizasiyası hadisəsi kimi meydana çıxması ideyası irəli sürülmüşdür. Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığından gətirilən konkret nümünələr əsasında təsəvvüf təlimi Türk-İslam mədəniyyətinin, o cümlədən ədəbiyyatının əsas fəlsəfi-estetik bazası kimi təqdim edilmişdir. Təsəvvüf fəlsəfəsi ilə əlaqədar olan ən müxtəlif elmi-nəzəri mənbələrə əsaslanmaqla bu təlimin əsasında dayanan fikir və ideyalar ümümiləşdirilmiş, klassik ədəbi nümunələr diaxron aspektdə tədqiqata cəlb olunmuşdur.

2015-ci ildə Elçin Məmmədovun bir məqaləsi çap olunmuşdur:

1. **Füzuli ədəbi məktəbi XVI-XIX yüzilliklərdə: formalaşması və inkişafı.** "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları, Bakı, 2015, səh 160-163.

**İş. Milli kurikulum və yeni təlim strateqiyaları .**

**Mərhələ**1. Milli kurikulum əsasında tərtib olunmuş orta məktəb dərsliklərində mətn üzrə işin təşkili.

**11. İcraçı: müəllim S.H.Rzayeva.**

Elmi-plan işində orta məktəbin V-VIII sinifləri üçün yazılmış dərsliklərdə mətn üzrə işin təşkilindən danışılır. Milli fənn kurikulumunun ( dövlət standartlarının) tələbinə əsasən ana dili üzrə əsas məzmun standartları-dinləyib-anlama və danışma, oxu və yazı qaydaları, eləcə də dil qaydaları üzrə iş dərsliklərdəki müvafiq mətnlər üzrə yerinə yetirilməlidir.

Mətn üzərində işlərə mətnin hissələrinə ad vermək, mətnin necə davam

edəcəyinə münasibət bildirmək, mətnə dair plan tutmaq, mətndəki obrazları səciyyələndirmək, bədii təsvir vasitələrini müəyyənləşdirmək və s. daxildir.

Mətnlərdən sonra verilən "Söz ehtiyatı" və ya "Söz çeşməsi", "Düşün və cavab ver" hissələri üzərində iş də həmçinin mətnlə əlaqələndirilir. "Yadda saxla!" başlığı ilə verilən dil qaydaları da mətn üzrə iş vasitəsilə mənumsədilir.

Tədqiqat nəticəsində müəyyənləşdirilir ki, əldə edilən biliklər mətn üzərində iş nəticəsində bacarıq və vərdişlərə çevrilir ki, bu da müasir təlimin tələblərinə tam cavab verir.

1.Azərbaycan dili və ədəbiyyat tədrisində yazılı nitqin inkişaf etdirilməsi üzrə praktik iş növləri. (Səh.278-280). Dil və ədəbiyyat №2 . Bakı 2015

2. Azərbaycan dili və ədəbiyyat tədrisində şifahi nitqin inkişaf etdirilməsi üçün praktik iş növləri. Filologiya məsələləri №7.Elm və təhsil . Bakı 2015.səh.41-45

**4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI**.

Hesabat dövründə 26 məqalə çap olunmuşdur və 4 proqram çap olunmuşdur.Məqalələr Azərbaycan dilinin və ədəbiyyatının nəzəri və tədrisi məsələlərinə həsr olunmuşdur. Kafedranın ümumi balı 590 baldır.

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ** – Yoxdur.

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR** – Yoxdur

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.** Kafedranın müəllimi dos. R.Quliyeva 21-23ekim,2015- ci ildə Uluslararası Kars simpoziumunda məruzə ilə çıxış etmişdir.

**8. ELMİ – TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ.**

Elmi – tədqiqat işlərinin nəticələri ali və orta məktəb dərsliklərinin tərtibində istifadə oluna bilər.

**9.PATENT VƏ İNFORMASİYA İŞLƏRİ** – Yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI**: Kafedrada 2013-2014-cü illər uçun nəzərdə tutulmuş elmi plan işinin əsasında 2015- ci ilin elmi iş planı tərtib edilmiş və hər bir müəllimə konkret iş tapşırılmışdır.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI.**

Kafedranın üzvləri fakültədə və universitetde keçirilən bir sıra elmi konfransların təşkilində iştirak elmişlər.

**Dos. Rəhilə Quliyeva:** Görkəmli ictimai xadim, Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransda Dilçilik bölməsində katib olmuşdur.

**1.** «B. Vahabzadə və Azərbaycan Filolociyasının Aktual Problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. 29 oktyabr 2015-ci il., B.2015.

**Mövzu**: «Azərbaycan dilçiliyində Yusif Seyidov mərhələsi».

**2.** Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Filologiyanın Aktual Problemləri mövzusunda Respublika elmi-nəzəri konfransın materialı.Bakı, 2015.

**Mövzu**: «Kommunikativ vəzifənin həyata keçirilməsi».

**3**.Uluslararası Kars simpoziumu. 21-23ekim,Kars, 2015.

**Mövzu**:«Azerbaycan Türkçesinde konuşmanın geliştirilmesi yöntemleri».

**Dos. M.Qurbanova**: 1.( B.Vahabzalənin anadan olunmasının 90 illik yubileyinə həsr olunmuş «B. Vahabzadə və Azərbaycan Filolociyasının Aktual Problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. 29 oktyabr 2015- ci il., B.2015. səh.75-77.

**Mövzu**: «Bəxtiyar Vahabzadə yaradıcılığı: idrak fəlsəfəsinin dili»

2. Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015. Səh. 274-278.

**Mövzu:** «Azərbaycan dilində söz yaradıcılığı prosesində Avropa mənşəli alınmaların rolu».

3. Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015. Səh. 16-18.

**Mövzu**: «Bizim Pənah müəllim».

**4.** «Kitabi – Dədə Qorqud və Türk dünyası» mövzusunda keçirilən Beynəlxalq Elmi Konfransının materialı. Bakı 2015. (çapdadır)

**Mövzu**: «Kitabi – Dədə Qorqud» leksikası və ümumtürk leksikoqrafiyası».

**Dos. R.Mahmudova:** 1. Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015.

**Mövzu:** «Sevimli müəllim,xeyirxah insan»

**2.** «Kitabi – Dədə Qorqud və Türk dünyası» mövzusunda keçirilən Beynəlxalq Elmi Konfransının materialı.Bakı. 2015. (çapdadır)

**Mövzu** «XVIII – XIX əsrlərdə yaranan lüğətlər».

**Dos. Ə.H.Cavadov: 1.**"**Azərbaycanşünaslığın aktual problemləri**"-Ümumilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları (I hissə). 5-7 may 2015-ci il. Bakı, "Mütərcim", 2015.

**Mövzu:** «Qul Əlinin "Qisseyi-Yusif" əsərində təközəkli tabeli mürəkkəb cümlələrin struktur təhlili».

**2.**"**Türk xalqları ədəbiyyatının aktual problemləri"**- Professor Pənah Xəlilovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2015.

**Mövzu:** Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə komponentlərinin semantik –qrammatik xüsusiyyətləri (M. Füzulinin əsərləri üzrə)

**Dos. M.Abdullayeva: 1.**.H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr Respublika Elmi-Nəzəri Konfransı.Bakı, 2015

**Mövzu:**Yusif Seyidovun bədii-fəlsəfi düşüncələri.

**2**. Respublika elmi konfransının materialları.Bakı,2015

**Mövzu:** Mifik təfəkkürün fəlsəfi aspekti."Azərbaycan folklor nümunələrin- də milli-mənəvi dəyərlərin təcəssümü"

**3.** B.Vahabzadənin anadan olmasının 90 iliyinə həsr olunmuş "B.Vahabzadə və Azərbaycan filologiyasının actual problemləri" Beynəlxalq elmi konfransının materialları.Bakı, 29 oktyabr, 2015

**Mövzu:** Qocalıq fenomeni və Bəxtiyar Vahabzadə yaradıcılığında onun ifadəsi

**3.** Pənah Xəlilovun yaradıcılığına həsr olunmuş elmi-nəzəri konfrans. Bakı, 15 dekabr, 2015.

**Mövzu:**Təsəvvüf poeziyasının dərkində koqnitiv metaforanın rolu.

**Dos. Ş.X.Əliyeva: 1.** B.Vahabzadənin anadan olmasının 90 iliyinə həsr

olunmuş "B.Vahabzadə və Azərbaycan filologiyasının actual problemləri" Beynəlxalq elmi konfransının materialları.Bakı, 29 oktyabr, 2015

**Mövzu:** «Qrammatika təlimində istifadə edilən metod və priyomlar».

**F.e.n.E.H.Məmmədov: 1.** "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları, Bakı, 2015, səh 160-163.

**Mövzu:** «Füzuli ədəbi məktəbi XVI-XIX yüzilliklərdə: formalaşması və inkişafı».

**12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ – PEDAQOJİ KADRLARIN HAZIRLANMASI.**

Kafedrada gənc işçilərin müəllim kimi hazırlanmasına diqqət yetirilir. Hal-hazırda kafedrada müəllim işləyən elmi dərəcəli ve elmi adı olan müəllimlərin bir çoxu kafedranın yetirmələridir.

**13.DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ.**

Dos. Rəhilə Quliyeva və dos. Mətanət Abdullayeva Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən D.02.181.Dissertasiya şurası yanında Elmi seminarın üzvüdürlər.

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ- TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI). Yoxdur**

**15. 2014-cü İLDƏ HANSI AVADANLIQLARIN ALINMASINA EHTİYAC DUYULUR.**Kafedranın kompyuterə ehtiyacı var.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR.**

Kafedranın müəllimlərinin əksəriyyəti pedaqoji işlə, bir çoxu isə ciddi elmi- tədqiqatla məşğuldur. Yaxşı olar ki, maaşlar pedaqoji iş üçün ayrı, elmi işlər üçün ayrı verilsin.

**Kafedra müdiri:** **prof.H.A.Əsgərov**